# Adı kimi gözəl



**Azərbaycanın səfalı guşələrindən olan Göyçay öz bərəkətli torpağı, bol-bəhrəli bağları ilə göz oxşayır, könül sevindirir. Bu yerlərin adamları da öz zəhmətsevərliyi ilə seçilir.**

## Göyçay

Rayonun günü-gündən inkişaf etməsi onun mədəniyyət və turizm sahələrinin də irəliləyişinə səbəb olub. Göyçay Rayon Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində 13 mədəniyyət evi, 16 klub, 63 kitabxana, ulu öndərin adını daşıyan Heydər Əliyev muzeyi, Tarix-diyarşünaslıq muzeyi, xalq şairi R.Rzanın ev muzeyi, Uşaq musiqi məktəbi, Ə.Kərim adına Mədəniyyət və İstirahət parkı fəaliyyət göstərir. Bu müəssisələrdə 402 nəfərə qədər işçi çalışır. Bu da hardasa əhalinin müəyyən qisminin öz ixtisası üzrə işlə təmin edilməsinə gözəl imkan yaradıb.

Rayonda aparılan abadlıq işləri, mədəni-kütləvi tədbirlərin təşkili insanların əhvali-ruhiyyəsinə də öz təsirini göstərir. Müxtəlif bayramların keçirilməsində rayonun mədəni-maarif müəssisələrinin böyük rolu olur.

"Nar bayramı", "Novruz" bayramı münasibətilə keçirilən tədbirlərdə uşaq musiqi məktəbinin şagirdləri yaxından iştirak etmişdir. Musiqi məktəbində 5 ixtisas üzrə dərslər aparılır. Fortepiano, skripka, tar, kamança və qarmon. Məktəbdə 482 şagird təhsil alır. Dərslər təsdiq edilmiş plan əsasında keçirilir. Tədrisin keyfiyyətini artırmaq məqsədilə vaxtaşırı müəllimlərin iştirakı ilə açıq dərslər keçirilir, şagirdlərin bilik səviyyəsi, musiqi duyumu yoxlanılır. Müxtəlif ixtisaslar üzrə dərs deyən müəllimlərin qabaqcıl iş prinsipləri tətbiq edilir. Təranə Rizvanova, Yaqut Mustafayeva, Səbinə Mustafayeva, Afət Məmmədova, Xədicə Veysəlova kimi qabaqcıl müəllimlərin təşkil etdikləri konsertlərdə şagirdlərin öz valideynləri və müəllim kollektivi qarşısında gözəl çıxışları hamının xoşuna gəlir.

Məktəbdə xor kollektivi, xalq çalğı alətləri ansamblı, skripkaçılar ansamblı fəaliyyət göstərir. Bu kollektivlər rayonda keçirilən bütün bayram şənliklərində məharətlə çıxış edirlər. 2008-ci ilin aprel ayında məktəbin xor kollektivi Şəki şəhərində Respublika Uşaq Musiqi Məktəblərinin zonabaxış müsabiqəsində müvəffəqiyyətlə çıxış etmiş və münsiflər tərəfindən yüksək qiymətləndirilmişdir.

Qara Qarayevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Gənc musiqiçilər təhlil və ifa edir" elmi ifaçılıq müsabiqəsində məktəbin III sinif şagirdi Toğrul Salmanov III dərəcəli diploma və pul mükafatına layiq görülmüşdür.

Göyçay deyəndə unudulmaz, xatirələrdə öz əbədiyaşar heykəlini ucaltmış R.Rza, Ə.Kərim gəlir gözlərimiz önünə. Poeziyada öz sözünü demiş bu sənətkarların tez-tez xatırlanması artıq adət halını alıb, gözəlliklər, çinarlar yurdu olan Göyçayda.

Təsadüfi deyil ki, rayon mədəniyyət evi R.Rzanın - ürəyi daim vətən eşqi ilə çağlayan sənətkarın adını daşıyır. Müəssisələrin əsaslı təmiri və inventarla təminatı üçün xeyli vəsait ayrılmışdır. Bu da indiki çətin şəraitdə, müharibə şəraitində olan bir ölkənin öz mədəniyyətinin, insanlarının sosial-rifah halının qorunmasının, "hər şey insana xidmət edir" prinsipinin reallaşmasının bariz nümunəsidir.

Bu günlərdə Göyçay Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Sahib Şükürovla görüşdük, ondan görülən işlər barədə məlumat verməsini xahiş etdik. Sahib müəllim məmnunluqla bildirdi ki, mədəni-maarif müəssisələrinin köməyi ilə 2008-ci ildə bir sıra kütləvi tədbirlər həyata keçirilmişdir.

20 yanvar faciəsinin ildönümünə həsr olunmuş "Şəhidlik zirvəsinə gedən yol", "Unudulmayan tariximiz" başlığı altında əbədi-bədii kompozisiyalar və bu mövzuya həsr olunmuş foto-stendlər tamaşaçılar, qonaqlar tərəfindən diqqətlə qarşılandı. Sanki həmin günü insanlar yenidən yaşadılar. Foto-stendlərin düzgün seçilməsi də nəzərdən yayınmadı.

2 fevral gənclər gününə həsr olunmuş "Gəncliyimiz, gələcəyimiz" adlı ədəbi-bədii proqram tədbirə toplaşanlarda xoş əhvali-ruhiyyə yaratdı.

26 fevral Xocalı faciəsinin 16-cı ildönümünə həsr olunmuş "Xocalı qan yaddaşımız" tədbirində sənədli-bədii proqram öz mükəmməlliyi ilə seçildi.

Xocalı faciəsində erməni cəlladlarının törətdikləri ağlagəlməz vəhşiliklər, zorakılıqlar sənədlərin dili ilə xalqa çatdırıldı.

8 mart Beynəlxalq Qadınlar gününə həsr olunmuş "Dünyanı xilas edən gözəllik", "Ay mənim göyçək anam", "Analar dünyamızdır" başlığı altında ədəbi-bədii proqramlar, musiqi kollektivlərinin çıxışları hamının xoşuna gəldi.

Hər il Novruz bayramı bizim Göyçayda xüsusi təmtəraqla keçirilir. Biz şənlənməyi, öz müvəffəqiyyətimizlə düşmən bağrı yarmağı bacaran millətik. Gərək düşmən bizim kədərimizi duymasın, necə deyərlər, şənlənməyimizdən xar olsun. Ona görə də bu milli bayramın hər il xüsusi təmtəraqla keçirilməsinə ciddi yanaşırıq. Novruzun ayrı-ayrı çərşənbələri xüsusi şənliklərlə əhatə olunur. Bir-birindən maraqlı tədbirlər, ədəbi-bədii, əyləncəli proqramlar təşkil olunur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum gününə həsr olunmuş "Dahilərin dahisi" adlı bülletenlər, divar qəzetləri və foto-sərgilər, Heydər Əliyevin Göyçaya səfərini əks etdirən fotolardan ibarət və "Müasir Azərbaycan dövlətçiliyinin memarı" adlı foto-stend, "Müstəqilliyimizin qarantı" adlı kitab sərgisi, "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlı kitabın təqdimat mərasimi, "Çağla, Heydər dünyası" adlı musiqili-ədəbi konsert proqramı ulu öndərə xalq sevgisinin, Göyçay əhalisinin əbədi məhəbbətinin tərənnümüdür.

28 May Azərbaycan Demokratik Respublikasının yaranmasının 90-cı ildönümünə həsr olunmuş "Çiçəklən, Azərbaycan" adlı tanınmış incəsənət ustalarının iştirakı ilə konsert proqramı, "Canım mənim məmləkətim" adlı bayram konserti, Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı kitab sərgiləri, foto-stendlər, bülletenlər, divar qəzetləri, ədəbi-bədii gecələr, kompozisiyalar, "Müstəqilliyə gedən yol" adlı oxucu konfranslarının təşkili yüksək səviyyədə olmuşdur.

Prezident seçkilərinin müvəffəqiyyətli alınması ilə əlaqədar rayonda böyük şənliklər təşkil olunmuşdur.

Heydər Əliyev muzeyi 2007-ci ilin yanvar ayından fəaliyyət göstərir. İkimərtəbəli muzey də 160 eksponat var ki, bunlardan 149-u şəkil, 11-i isə sənədlərdən ibarətdir. Birinci mərtəbədə H.Əliyevin incəsənət adamları ilə görüşləri, neft siyasəti, dövlət başçıları ilə, cəbhə bölgələrində əsgərlərlə, çadır şəhərciklərində qaçqınlarla və Göyçay rayonunun sakinlərilə görüş şəkilləri yerləşdirilib. İkinci mərtəbə isə ailə şəkilləri və sənədlərdən ibarətdir.

Göyçayda olarkən oradakı muzeylərə baş çəkməyi də unutmadıq. R.Rzanın 2005-ci ildə yaradılmış ev-muzeyi diqqətimizi cəlb etdi. Muzeydə 319 ədəd eksponat var. Bunların 9 ədədi R.Rzanın şəxsi əşyaları, 310 ədədi isə R.Rzanın və N.Rəfibəylinin kitabları, foto-şəkilləri və R.Rzaya hədiyyə verilmiş süvenirlərdən ibarətdir.

Göyçay rayon tarix-diyarşünaslıq muzeyi 1984-cü ildən fəaliyyət göstərir. Muzey 10 zaldan ibarətdir. Eksponatlarının genişliyi, canlılığı adamı heyran edir. Muzeydə hazırda 6151 eksponat var ki, bu da mövzu-ekspozisiya planına uyğun olaraq yerləşdirilmişdir.

Göyçay mərkəzi kitabxanasının iş metodu, kitabın fondu, oxucuların sayı bu rayon haqqında olan müsbət fikirlərimizi bir daha qüvvətləndirdi. Kitabxanada 6 şöbə fəaliyyət göstərir. Metodika, kitabişləmə, xidmət, oxu zalı, biblioqrafiya, mübadilə şöbələrinin prinsipi ilə tanış olduq.

2008-ci il ərzində Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr edilmiş 12571 nüsxə kitab rayon MKS-nə hədiyyə olaraq verilmişdir.

... Göyçaydan xoş təəssüratla ayrıldıq. Bir daha əmin olduq ki, görülən işlər Mədəniyyət və Turizm şöbəsi əməkdaşlarının timsalında xalqımızın ulu adət və ənənələrini yaşatdığının, qoruyub saxladığının və gələcək nəsillərə gözəl bir töhfə kimi ərməğan ediləcəyinin gözəl nümunəsidir.

● A.QOCAYEVA

